**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ**
**ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**ГЮНЕЛЬ ШИРХАН КЫЗЫ АДЫГЕЗАЛОВА**

**Азербайджано-турецкое стратегическое сотрудничество на Южном Кавказе в современный период**

**Специальность: 5901.01 - «Международные отношения»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по политическим наукам**

**БАКУ - 2014**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ**
**YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

***Əlyazması hüququnda***

**GÜNEL ŞİRXAN QIZI ADIGÖZƏLOVA**

**MÜASİR DÖVRDƏ CƏNUBİ QAFQAZDA AZƏRBAYCAN-TÜRKİYƏ STRATEJİ ƏMƏKDAŞLIĞI**

**İxtisas: 5901.01 – "Beynəlxalq münasibətlər"**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2014**

İş Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun «Beynəlxalq münasibətlər və beynəlxalq hüquq» şöbəsində yerinə yetirilmişdir:

**Elmi rəhbər:** siyasi elmlər doktoru, professor **E.X.Nəsirov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor **B.M.Abdullayev**

siyasi elmlər üzrə fəlsəfə doktoru **E.B.Hacalıyev**

**Aparıcı təşkilat**: Bakı Dövlət Universitetinin «Diplomatiya və müasir inteqrasiya prosesləri» kafedrası

Müdafiə « _27___ » __10____ 2014-cü il saat ____ -da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ1001, Bakı şəhəri, Lermontov küçəsi,74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____»____________ 2014-cü ildə göndərilmişdir.

**FD 02.101 Dissertasiya Şurasının elmi katibi,**

**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent: S.İ.Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında və ümummilli lider Heydər Əliyevin çıxışlarında öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkələrin maraqları nəzərdə tutan prinsiplər əsasında qurur.[1] Ümummilli lider Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında qeyd etmişdir ki, "respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın müstəqilliyini möhkəmlətmək üçün mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin olunmasıdır. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikamızın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir."[2]

Azərbaycan Respublikasının xarici siyasət prioritetləri sırasında beynəlxalq birliyin subyektləri ilə ikitərəfli əlaqələr formatı xüsusi çəkiyə malikdir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2012-ci il ilin 21 sentyabr tarixində diplomatik xidmət orqanları rəhbərlərinin dördüncü müşavirəsində xüsusi olaraq vurğulamışdır ki, "bizim xarici siyasətdəki əsas istiqamətimiz ikitərəfli əlaqələrdir. Deyə bilərəm ki, ikitərəfli əlaqələrdə tərəfdaş ölkələrin böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, biz bərabərhüquqlu münasibətlər formalaşdıra bilmişik. Bu, çox vacibdir."[3]

Azərbaycan Respublikasının xarici siyasət istiqamətlərinin seçimində bu amil xüsusi əhəmiyyət kəsb etmiş və indi də belədir. Məsələyə bu kontekstdə yanaşdıqda Azərbaycan və Türkiyə arasında formalaşmış münasibətlərin strateji tərəfdaşlıq xarakterinə malik olduğunu qeyd edə bilərik.

Türkiyə nəinki Azərbaycanın, eyni zamanda bütün Qafqazın taleyində önəmli rolu olan üç əsas region dövlətlərindən (Rusiya və İranla bərabər) biridir. Professor Əli Həsənovun qeyd eydiyi kimi, Türkiyənin Qafqaz siyasətində həm strateji maraqlar (NATO blokunun ümumi strateji maraqları), həm etnik (Qafqazda yaşayan türkdilli xalqların dəstəyini qazanmaq, onlara lazımi himayə göstərmək), həm də dini amillər (Qafqazın müsəlman əhalisinin İranın təsirinə düşməsinin qarşısını almaq) özünü daim qabarıq şəkildə büruzə vermişdir.[4]

**Problemin işlənmə dərəcəsi.** Elmi-tədqiqat predmeti kimi seçilmiş mövzunun ayrı-ayrı istiqamətlərinin araşdırılması baxımından həm Azərbaycan, həm də Türkiyə tədqiqatçıları tərəfindən müəyyən işlər görülmüşdür., ancaq onun politoloji baxımdan əlahiddə olaraq tədqiqi sahəsində hələ də müəyyən boşluqlar vardır.

Tədqiq edilən mövzunun nəzəri və ideoloji parametrlər baxımından işlənilməsi prosesində akademik R.Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" adlı fundamental tədqiqat əsəri xüsusi rol oynamışdır. Kitabda qloballaşma şəraitində Azərbaycan dövlətçiliyinin təşəkkülü məsələləri, keçid dövrü zəngin nəzəri və elmi-konseptual yanaşmalar əsasında qloballaşan dünyanın yeni reallıqları fikir süzgəcindən keçilərək mənalandırılmış, qərbləşmənin və

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı:Qanun, 2004, 48 s.
[2] Əliyev Heydər. Mustəqilliyimiz əbədidir. 46 cilddə. Kitab I. Bakı, Azərnəşr, 1997, 608 s., s.205
[3]Diplomatik xidmət orqanları rəhbərlərinin dördüncü müşavirəsində İlham Əliyevin nitqi//www.president.az/articles/6304
[4] Həsənov Ə. M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərrnəşr, 2005, s.562

modernləşmənin Azərbaycan cəmiyyətinə təsiri ilə bağlı məsələlər elmi təhlillər müstəvisinə çıxarılmışdır. [5]

Ə.Həsənovun «Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)» adlı tədqiqatında 1991-1996-cı illərdə Azərbaycanın xarici siyasət kursunun əsas vəzifələri, prinsip və istiqamətləri təhlil edilmişdir. Müəllifin "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" adlanan fundamental əsərində konkret faktlar və arqumentlər əsasında Azərbaycan və Türkiyə arasında formalaşmış münasibətlərin strateji tərəfdaşlıq xarakteri kəsb etdiyini əsaslandırılmışdır.[6]

M.Qasımovun monoqrafiyasında Azərbaycan-Türkiyə münasibətləri də bir sıra istiqamətlər üzrə təhlil olunmuş, bu dövlətlər arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı mənafeyinə xidmət göstərən təklif və tövsiyələr irəli sürülmüşdür. Müəllifin Azərbaycan Respublikasının xarici siyasət prinsipləri, məqsəd və vəzifələri, beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı, dünyanın aparıcı dövlətləri ilə münasibətləri, o cümlədən Türkiyə ilə əlaqələrinin təhlil olunduğu digər əsəri də dissertasiyanın yazılması prosesində faydalı olmuşdur.[7]

H.Hüseynova tərəfindən siyasi elmlər doktoru alimlik dərəcəsi almaq üçün yerinə yetirilmiş "Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində" adlı dissertasiyasında Azərbaycanın Avropa ilə əlaqələri sırasında həmçinin Türkiyə ilə mövcud əməkdaşlığı da araşdırılmışdır.[8]

---

[5] Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: XXI Yeni Nəşrlər Evi, 2005, 464 s.

[6] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan, 2005, 752 s.; Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, Azərnəşr, 1998, 315 s.

[7] Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995 ci illər) .Bakı, Gənclik, 1996, 140 s.; Qasımov M. C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri).Bakı, Mütərcim, 1997, 124 s.

[8] Hüseynova H. K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Siyasi elmlər doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2001, 55 s.

Dissertasiyanın yazılması prosesində E.Nəsirovun "Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999)", "Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər)", "ABŞ və dünya 11 sentyabrdan sonra", "ABŞ-ın antiterror doktrinası və onun tətbiqi mexanizmləri" adlı monoqrafiyalarına da müraciət olunmuşdur[9].

E.Əhmədovun, S.İmanovanın və E.Hüseynovun dissertasiyaları da tədqiqat problemi baxımından maraq doğurur[10].

Tədqiqat yazılarkən həmçinin Türkiyə müəlliflərinin də əsərlərinə müraciət edilmişdir. Onlardan 28 müəllifin, o cümlədən (Ersin Kalayçıoğlu, Oral Sander, Gülden Ayman, Nursin Ateşoğlu Güney, Kemal Kirişci və b.) kollektiv işinin nəticəsi olan kitabı, N.Devletin, M.Sarayın, T.Sadıkların, həmçinin müəlliflər kollektivi tərəfindən hazırlanmış digər əsərləri qeyd edə bilərik. Bu əsərlərdə SSRİ-nin dağılması nəticəsində türk dünyasında baş verən dəyişikliklər, yeni türk cümhuriyyətləri, onların müasir durumu, siyasi, iqtisadi və mədəni vəziyyətləri, Türkiyə xarici siyasətində türk cümhuriyyətləri məsələləri, həmçinin beynəlxalq və məhəlli təşkilatlarda iştirak və əməkdaşlıq, yeni müstəqillik qazanmış dövlətlərə iqtisadi yardım, ümumilikdə, xarici iqtisadi əlaqələr məsələləri nəzərdən keçirilir[11].

---

[9] Nəsirov E.X. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999). Bakı, Respublika Xatirə Kitabı,1999, 104 s.; Nəsirov E.X. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər). Bakı, Qanun, 1998, 136 s.; Nəsirov E.X. ABŞ və dünya 11 sentyabrdan sonra, Bakı, Bakı Universiteti, 262 s.; Nəsirov E.X. ABŞ-ın antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı, Elm və Təhsil, 392 s.

[10] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, Tuna, 1998, 137s.; İmanova S. Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əlaqələri (1991-1998-ci illər). Bakı, Tarix elmləri namizədi almaq üçün təqdim olunmuş dissertasiyasının avtoreferatı. Bakı, 2001, 25s.; Hüseynov E. Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri (1991-1995-ci illər). Tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyasının avtoreferatı. Bakı, 2000, 25s.

[11] Türk dış politikasının analizi. Deyerleyen Dos. Dr. Faruk Sönmezoğlu, İstanbul, Der Yayınları, 1994, 520 s.; Devlet N. Çağdaş türk dünyası. İstanbul, Marmara Universitesi Yayınları, 1989, 327 s.; Saray M. Türkiyə ilə türk cümhuriyyətləri və türk toplulukları arasında ilişkiler və fəaliyyətlər. Ankara, Kültür Bakanlığı, 1993, 439

S.Yanarın tədiqat əsərində Türkiyə-Rusiya münasibətlərində Qafqazın yeri, refgionun enerji ehtiyatları ilə bağlı açıq-gizli mübarizə, Türkiyə və Rusiyanın geosiyasi hədəfləri, habelə rəsmi Ankaranın Cənubi Qafqaz siyasətinin mahiyyət, məzmun və forma xüsusiyyətləri ilə bağlı məsələlər analiz olunmuşdur[12].

S.İ.Çernyavskinin, N.A.Nartovun, A.Duqinin və b. əsərlərində tədiqat predmeti ilə bu və ya digər səviyyədə bağlı olan məsələlər elmi təhlillər süzgəcindən keçirilmişdir. Bu əsərlərdə Türkiyənin region siyasətinə də müxtəlif rakurslardan toxunulmuşdur[13].

Dissertasiyada ABŞ müəlliflərindən Z.Bjezinski, H.Kissincer C.Groissant, S.Talbott, O.Alstadt və başqalrının da əsərlərindən istifadə olunmuşdur.[14]

Beləliklə, göründüyü kimi, Azərbaycan-Türkiyə münasibətləri müxtəlif aspektlərdən tədqiqatçıların diqqətini cəlb edir və bu istiqamətdə həm Azərbaycanda, həm də xaricdə geniş araşdırmalar aparılmışdır. Bununla belə, elmi ədəbiyyatın təhlili göstərir ki, qoyulan problemin dissertasiya səviyyəsində politoloji baxımdan əlahiddə olaraq tədqiqi sahəsində hələ də boşluqlar var və onların aradan qaldırılmasında təqdim olunan işi müəyyən addım kimi dəyərləndirmək olar.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir mərhələdə regional səviyyədə Azərbaycan-Türkiyə strateji tərəfdaşlıq prosesi və münasibətlər sistemi, eləcə də hər iki dövlətin bu sahədə həyata keçirdiyi siyasət, predmetini isə bu siyasətin istiqamətləri və həyata keçirilməsi mexanizmləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri** Azərbaycan-Türkiyə strateji-tərəfdaşlıq münasibətlərinin forma-məzmun mündəricəsi və onun tətbiqi mexanizmləri təşkil edir.

Dissertasiya işinin məqsədi – müasir mərhələdə Cənubi Qafqaz regionunda Azərbaycan-Türkiyə strateji tərəfdaşlıq münasibətlərinin forma və məzmun xüsusiyyətlərini araşdırmaqdan, bu kontekstdə iktərəfli əlaqələrin hüquqi-siyasi əsaslarını, istiqamətlərini, formaları və reallaşdırılma mexanizmlərini təhlil etməkdən, tədqiqat predmeti ilə bağlı elmi-nəzəri mühakimələr, ideyalar, praktiki tövsiyələr irəli sürməkdən, bu prosesi elmi-analitik, nəzəri-konseptual və praktiki xarakterli yanaşmalarla təmin etməkdən ibarətdir.

Qeyd edilən məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

-Müasir mərhələdə Cənubi Qafqazda baş verən siyasi proseslər prizmasından Azərbayacan-Türkiyə münasibətlərinin xarakteristikasını analiz etməl, onun xüsussiyyətləri və inkişaf tendensiyalarını üzə çıxarmaq;

-Azərbaycan-Türkiyə əməkdaşlığını siyasi-diplomatik və hərbi-təhlükəsizlik parametrləri baxımından tədqiq etmək və bu sahələrdə əldə olunan inkişaf prosesinin dinamikasını izləmək;

-Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Türkiyənin yeri və rolu ilə bağlı məsələləri elmi və siyasi təhlillər müstəvisinə çıxarmaq;

-Ticarət-iqtisadi və humanitar sahələrdə ikitərəfli əlaqələrin inkişaf səviyyəsini təhlil etmək və bu sferalarda mövcud problemlərin həlli yollları və sonrakı inkişaf istiqamtləri ilə bağlı konkret təklif və tövsiyələr irəli sürmək;

-Enerji təhlükəsizliyi sahəsində ikitərəfli əlaqələri şərtləndirən amilləri, əməkdaşlığın real vəziyyəti və perspektivlərini elmi təhlillər süzgəcindən keçirmək.

**Dissertasiyanın nəzəri-metodoloji əsasları** irəli sürülmüş məqsəd və vəzifələrlə müəyyən edilmişdir. Tədqiqatın nəzəri əsaslarını ilk

---

s.; Bağımsızlığın ilk yılları. (Azerbaycan, Kazakistan, Kırqızistan, Özbekistan, Türkmenistan). Ankara, T.C. Kültür Bakanlığı, 1994, 298 s.

12 Yanar S. Türk-rus ilişkilerinde gizli güc: Kafkasiya. İstanbul, İQ Kültür Sanat Yayıncılık, 2002, 256 s.

13 Чернявский А. Новый путь Азербайджана. М, Азер-Медиа, Книга и бизнес, 2002, 352 с. Нужна ли Америке внешняя политика? М, Ладомир, 2002, 352 с.

14 Brzezinski Z., The Caucasus and New Geo-Political Realities // Azerbaijan International, Summer, 1997, p.12-16. Киссинджер Г. Нужна ли Америке внешняя политика? М, Ладомир, 2002, 352 с.Groissant C., Azerbaijan, Oil and Geopolitics. New-York, 1998. Talbott S.U.S. policy for the Caucasus // Azerbaijan International, Spring, 1998, p.22-29. Altstad O. The Azerbaijan Turks. Power and Identity under Russian Rule, Stanford, 1992.

növbədə, ümummili lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan-Türkiyə əməkdaşlığı ilə bağlı irəli sürdükləri konseptual müddəalar, eləcə də bu sahədə işlənilmiş fundamental elmi əsərlər təşkil edir.

Tədqiqat işində sosial-siyasi proseslərin dərk olunmasının ümumelmi metodları, sistemli yanaşma, struktur-funksional, tarixi və siyasi analiz, deduktiv və induktiv tədqiqat metodlarından geniş istifadə olunmuşdur.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işinin yazılması prosesində elmi dövriyyəyə cəlb olunmuş mənbə bazasını bir neçə qrupa bölmək olar: beynəlxalq hüquqi sənədlər; cari arxiv sənədləri; hüquqi-normativ aktlar; ikitərəfli münasibətlərə dair sənəd və materiallar toplusu və s.

Dissertasiya işi Azərbaycan, rus və ingilis dillərində olan çoxsaylı mənbələrin məlumatlarının tənqidi analizi əsasında yazılmışdır.

Tədqiqat işinin mühüm mənbə bazasını ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildliyi təşkil edir. Bu kitablarda ulu öndərin həm də Türkiyə ilə bağlı çıxışları, nitqləri rəsmi məktubları və digər sənədlər toplanmışdır. Çoxcildlik Azərbaycan-Türkiyə münasibətlərinin geniş spektrinə dair məsələlərə aydınlıq gətirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.[15]

Tədiqat işinin yazılmasında ilk növbədə Azərbaycan Respublikasın Konstitusiyasına,[16] Azərbaycan Respublikasının qanunlar külliyatı, Prezidentin müvafiq Fərman və Sərəncamları[17], BMT Nizamnaməsinə,[18] ATƏT-in Yekun Aktına və digər beynəlxalq hüquq sənədlərinə istinad edilmişdir.[19] mövzunun müxtəlif tərəflərinin hüquqi-normativ müstəvidə təhlilinə yardım göstərmişdir.

Azərbayacan Respublikası Xarici İşlər Nazirliyinin cari arxiv materiallarından da dissertsiyasından mənbə kimi istifadə olunmuşdur.[20]

Q.Allahverdiyev və V.Sultanzadənin tərtib etdikləri 6 cildliyin 3-cü kitabı olan "Heydər Əliyev və Şərq (Türkiyə Respublikası)" Azərbaycan-Türkiyə strateji tərəfdaşlıq münasibətlərinin elmi-analitik təhlilini sənədlərə istinad etməklə həyata keçirmək baxımından qiymətlidir. [21]

Nəhayət, elmi redaktoru akademik Ramiz Mehdiyevin və tərtibçiləri S.M.Qəndilov, E. İ. Əhmədov və E. Nəsirovun olduqları 2 kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-2008-ci illər ərzində müxtəlif ölkələrə, o cümlədən Türkiyəyə səfərləri zamanı verdiyi bəyanatların, çıxışların, nitqlərin, müsahibələrin və imzaladığı sənədlərin toplandığı əhəmiyyətli mənbə olaraq dəyərlidir.[22]

**Tədqiqatın elmi yeniliyi.** Aktuallığı və siyasi əhəmiyyəti nəzərə alınmaqla təqdim olunan tədqiqat işinin elmi yeniliyi aşağıdakı müddəalarla müəyyənləşdirilmişdir:

- Azərbaycan siyasi elmində Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin ayrı-ayrı istiqamətlərini özündə ehtiva edən müəyyən tədqiqatlar aparılsa da, Cənubi Qafqaz regioni kontekstində müasir

---

[15] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, Azərnəşr, 1997, 612 s.; IV kitab, Bakı, Azərnəşr, 1997, 528 s.; VI kitab, 1998, 512 s; VII kitab, 1998, 520 s; X kitab, 2002, 472 s.

[16] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, Qanun, 2004, 48 s.

[17] Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları// http:// www.president.az

[18] BMT Nizamnaməsi/ http://www.un.org/ru/documents/charter/: Azərbaycan Respublikasının qanunlar külliyatı. İV cild, Bakı, Digesta, 2004, 498 s.; Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları// http://www.president.az

[19] ATƏT-in Yekun Aktı./ http://www.osce.org/ru/mc/39505?download=true

[20] Azərbaycan Respublikasının Türkiyə Respublikası ilə imzaladığı sənədlərin siyahısı.Müqavilə-hüquq şöbəsi, 2007, 12 s. Azərbaycan Respublikasının İqtisadi Raporu// Azərbaycan-Türkiyə İş Adamları Birliyinin (ATİB) nəşri, 2005, 39 s. Ülkə Profilleri// Türk İşbirliyi ve Kalkınma Alyansı yayınları (TİKA), Ankara, 2001, 209 s.

[21]Heydər Əliyev və Şərq (Türkiyə Respublikası ), altı cilddə, III kitab,/ Q.Allahverdiyev və V. Sultanzadənin müəllifliyi və tərtibçiliyi ilə. Bakı, Çaşıoğlu, 2005, 471 s.

[22] Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizim. İlham Əliyevin Prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərinin icmali (2003-2006). Bakı, Azərbaycan nəşriyyatı, 944 s; Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizim. İlham Əliyevin Prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərinin icmali (2007-2008). Bakı, Azərbaycan nəşriyyatı, 2008, 754 s.

mərhələdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlıq əlaqələrinin kompleks analizi və onun nəticələri haqqında təhlillər məhz bu dissetasiyada öz əksini tapmışdır.

- Siyasi-diplomatik və hərbi-təhlükəizlik sahələrində Azərbaycan-Türkiyə münasibətlərinin yaranması, formalaşması və sonrakı inkişaf dinamikasını şərtləndirən amillər üzə çıxarılmış, habelə bu sferalarda əməkdaşlıq mühitinin daha münbit xarakter almasına hədəflənmiş elmi mühakimə, müddəa və proqnozlar irəli sürülmüşdür. Bununla yanaşı, qeyd edilən sahələrdə mövcud problemlərin aradan qaldırılması mənafeyinə xidmət göstərən preventiv, proflaktik və perspektiv xarakterli addımların atılması zərurəti əsasalndırılmış və onların forma-məzmun mündəricəsi təklif olunmuşdur.

- Ticarət-iqtisadi və humanitar sahələr üzrə həyata keçirilən siyasətin elmi-hüquqi əsasları və praktiki məsələləri geniş siyasi analiz müstəvisinə çıxarılmışdır;

-Ermənistan hərbi birləşmələri tərəfindən Azərbaycan torpaqlarının işğalı zamanı və Dağlıq Qarabağ probleminin həlli prosesində Türkiyənin mövqeyi ilə bağlı məsələlər elmi-analitik təhlillər predmetinə çevrilmişdir.

-Azərbaycanın enerji təhlükəsizliyi sahəsində rəsmi Ankara ilə əməkdaşlığı məsələləri karbohidrogenlərin hasilatı və çoxşaxəli kəmərlər vasitəsilə həm Türkiyəyə, həm də dünya bazarına çıxarılması problemləri kontekstində tədqiq olunmuş, bu prosesin geosiyasi və geoiqtisadi əhəmiyyəti üzə çıxarılmışdır.

-Azərbaycan siyasi elmində ilk dəfə olaraq tədqiqat predmeti ilə bağlı xaricdə nəşr olunmuş bir sıra mənbələr və ədəbiyyatlar ilk dəfə elmi dövriyyəyə cəlb olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin materialları, əsas müddəaları və nəticələri:

- ikitərəfli münasibətlərin daha da inkişafı mənafeyinə xidmət göstərən qanunvericilik aktlarının hazırlanmasında;

- Azərbayacan Respublikasının müdafiq dövlət orqanları qeyri-hökumət təşkilatlarının Türkiyənin müvafiq qurumları ilə əməkdaşlığında faydalı ola bilər.

Dissertasiyanın materialarından müvafiq profil üzrə mütəxəssislər hazırlayan ali təhsil müəssisələrinin müəllim və tələbələri üçün müvafiq fənlərin tədrisində mühazirə, məşğələ və xüsusi kursların keçirilməsində, dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların hazırlanmasında, problemlə bağlı elmi konfransların keçirilməsində və elmi-tədqiqat işlərinin aparılmasında istifadə etmək olar.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda müzakirə edilmiş və müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiyanın əsas müddəaları və nəticələri müəllif tərəfindən ölkədə və xaricdə nəşr olunan elmi jurnallarda, dissertant və doktorantların elmi-praktik konfranslarının materiallarında elmi məqalə və tezislər formasında dərc olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, iki fəsil, beş yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə problemin elmi aktuallığı və əhəmiyyəti əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, mövzuya dair bir çox ədəbiyyatların təhlili verilmiş, dissertasiyanın elmi yeniliyi və praktiki əhəmiyyəti şərh olunmuşdur.

Birinci fəsil **"Cənubi Qafqazda Azərbaycan-Türkiyə əməkdaşlığı və onun reallaşdırılması mexanizmləri"** adlanır və üç yarımfəsildən ibarətdir.

Bu fəslin **"Regional siyasət kontekstində Azərbaycan-Türkiyə əməkdaşlığı: siyasi-diplomatik və hərbi-təhlükəsizlik aspektləri"** adlı birinci yarımfəslində rəsmi Bakı-Ankara münasibətləri regional siyasət baxımından konkret olaraq siyasi-diplomatik və hərbi-təhlükəsizlik parametrləri üzrə tədqiq edilmişdir. Burada qeyd olunur ki, Cənubi Qafqaz regionunda maraqları cəmlənmiş güç mərkəzləri sırasında Türkiyənin özünəməxsus yeri və rolu vardır. İqtisadi, siyasi, hərbi-təhlükəsizlik, habelə tarixi, mədəni və etnopsixoloji parametrləri

baxımından cəlbedicilik rəsmi Ankaranın region siyasətinin səmərəliliyini artıran amillərdəndir.

Türkiyə Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətdir. 1991-ci il noyabr ayının 9-da Türkiyənin Baş naziri Məsud Yılmaz Azərbaycanın müstəqilliyinin Türkiyə tərəfindən rəsmən tanınması haqqında bəyanat verdi. Bunun ardınca rəsmi Ankara 1992-ci il 14 yanvar tarixində Azərbaycanla diplomatik əlaqələri bərpa etmişdir. 1992-ci ilin may ayında Türkiyənin Azərbaycanda səfirliyi açılmışdır. Azərbaycanın isə Türkiyədə səfirliyi 1992-ci ilin avqust ayından fəaliyyət göstərməyə başlamışdır. Ölkəmizin 1993-cü il yanvar ayından etibarən İstanbul şəhərində Baş Konsulluğu işə başlamışdır. Azərbaycanın və Mərkəzi Asiyanın türkdilli respublikalarının BMT-yə qəbulunda da Türkiyənin təşəbbüslə çıxış etməsi qurumda müvafıq müzakirələrə start vermiş və müsbət nəticə ilə yekunlaşmışdır.

Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın geni°lənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə kursun yüksələn xətt üzrə inkişafını təmin etdi.

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olaraq Türkiyəyə üç rəsmi, iki qeyri-rəsmi, on beş işgüzar səfər etməsi ümummilli liderin xarici siyasət konsepsiyasında Türkiyəyə verdiyi əhəmiyyətin və ölkələr arasındakı strateji birliyin çox fərqli olduğunun göstəricisidir.

Ümummilli lider Heydər Əliyev bütün sahələrdə, o cümlədən hərbi sferada Azərbaycan-Türkiyə əlaqələrinin genişləndirilməsinə prioritet məsələ kimi yanaşmışdır. Məhz bu siyasətin nəticəsində Türkiyə Silahlı Qüvvələrinin iştirakı və dəstəyi ilə Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Hava Qüvvələri Məktəbi və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi yenidən qurulmuşdur.

NATO ölkəsi olan Türkiyə bu məsələlərin həllində Azərbaycana hərtərəfli yardım göstərmişdir. Bu dövr ərzində Türkiyə Silahlı Qüvvələrinin dəstəyi ilə Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradılmışdır.

16 avqust 2010-ci ildə Türkiyə Prezidenti Abdullah Gülün Bakıya rəsmi səfəri zamanı imzalanan "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə" böyük hərbi-siyasi əhəmiyyət kəsb etmişdir. Təqdirəlayiq haldır ki, müqavilə imzalanandan dərhal sonra, 15 sentyabr 2010-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında iştirak etmək üçün Türkiyəyə səfəri zamanı "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə" imzalanmışdır. Bununla da tərəflər arasındakı əlaqələri daha sağlam zəmində inkişaf etdirmək üçün mexanizm ortaya qoyulmuşdur. Bu fakt Türkiyənin Azərbaycanın ən yaxın strateji tərəfdaşı olduğunu bir daha təsdiqləmişdir.

İkinci yarımfəsil **"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı Türkiyənin mövqeyi"** adlanır. Yarımfəsildə Türkiyənin münaqişənin ədalətli həlli ilə bağlı tutduğu mövqenin təkamülü prosesi və inkişaf dinamikası izlənilmişdir. Həmin proses keçə əsrin 90-cı illərinin reallıqları və yeni yüzilliyin ilk onilliyinın mürəkkəb geosiyasi gerçəklikləri kontekstində təhlil olunmuşdur. Qeyd olunmuşdur ki, xüsusilə 2002-ci ildə Türkiyədə "Ədalət və İnkişaf Partiyası" hakimiyyətə gəldikdən sonra, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində bir tərəfdən rəsmi Bakının mövqeyini müdafiə etsə də, digər tərəfdən fərqli yanaşmalarla da çıxış etmişdir. Yeni Türkiyə rəhbərliyinin "qonşularla sıfir problem" siyasətinə start verməsi Ermənistanla da münasibətlərdə bəzi dəyişikliklərin edilməsini istisna etmirdi. Söhbət ilk növbədə Türkiyə-Ermənistan sərhədlərinin açılmasından gedirdi.

Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması məsələsi təkcə ABŞ-dan deyil, daha artıq dərəcədə Avropa İttifaqından da dəstəklənirdi. Hətta sonuncu Türkiyəni öz sıralarında görməyin əsas şərtlərindən biri kimi Ermənistanla sərhədlərin açılması və əlaqələrin bərpa olunması tələbini də gizlətmirdi. Çətin dilemma qarşısında qalan

Ərdoğan hökuməti formalaşmış şəraitin bütün müsbət və mənfi tərəflərini ciddi analiz edərək yeganə düzgün qərar qəbul etdi : nə qədər ki, Ermənistan Azərbaycan ərazilərinin işğalı siyasətinə son qoymayıb, bu dövlətlə heç bir əlaqələrin bərpasından söhbət gedə bilməz. Beynəlxalq təzyiqlər altında Türkiyə və Ermənistan arasında "Sürix protokolları" imzalansa da, onların tətbiqi imkanları sıfra bərabər olmuşdur.

Xatırladaq ki, Ermənistanın konstitusiya məhkəməsinin ptotokolların mətnində etdiyi qeyri-qanuni və məsuliyyətsiz düzəlişlər rəsmi Ankaranın kəskin etirazına səbəb olmuşdu. Ermənistan prezidenti S.Sarkisyanın Vaşinqton-Paris marşurutunun ardınca siyasi məsləhətləşmələr üçün Moskvaya yollanması və geri qayıtdıqdan sonra 2010-cu il aprelin 22-də ölkəsinin protokolların ratifikasiyasını təxirə salması ilə bağlı bəyanat verməsi bu prosesin tam olaraq dalana dirəndiyini və perspektivsizliyini növbəti dəfə təsdiqlədi.

"Ticarət-iqtisadi və humanitar sferalarda ikitərəfli əməkdaşlıq və onun perspektivləri" adlı üçüncü yarımfəsildə isə konkret faktlar və arqumentlər əsasında ikitərəfli ticarət-iqtisadi və humanitar əlaqələrin qurulması və inkişaf dinamikası elmi təhlillər predmetinə çevrilmişdir. Burada qeyd olunur ki, Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi uğurlu inkişaf strategiyası nəticəsində1996-cı ildən başlayaraq Azərbaycanda iqtisadi geriləmə tamamilə aradan qalxaraq, ancaq inkişaf müşahidə olunmuşdur. ölkədə iqtisadi sferada sabit inkişafı şərtləndirmişdir. Bu Türkiyə ilə Azərbaycan arasında iqtisadi sahədə əməkdaşlığın yeni mərhələyə qədəm qoymasını təmin etmişdir. Lakin onu da qeyd etmək lazımdır ki, qarşılıqlıqlı səmərəli əməkdaşlıq üçün hər iki ölkənin daha çox potensialı mövcud idi. Sonrakı illərdə əməkdaşlığın tempi artması sübut etdi ki, bu potensialdan düzgün istifadə edilməklə iqtisadi sahədə əlaqələrin davamlı inkişafı təmin olunmuşdur. Məsələn, 1995-ci ildə Azərbaycan və Türkiyə arasında ticarət dövriyəsi 167 milyon dollar təşkil etmişdirsə, 2000-ci ildə bu göstərici 234 milyon dollar, 2005-ci ildə isə 589 milyon dollar təşkil etmişdir. Bu ticarət dövriyyəsi Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin müvafiq olaraq 1995-ci ildə 12,8%-i, 2000-ci ildə 8%-i, 2005-ci ildə isə 7%-i təşkil etmişdir. 1995-ci ildə Azərbaycanın idxal əməliyyatlarının 21%-i, 2000-ci ildə 11%-i, 2005-ci ildə isə 7,4%-i Türkiyə ilə aparılan əməliyyatların payına düşmüşdür.

Qeyd etmək lazımdır ki, müasir mərhələdə də əsasi Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-Türkiyə humanitar əlaqələri son dövrdə daha yüksək templə inkişaf etməkdədir, bunu son vaxtlarda dövlət və hökumət rəhbərləri səviyyəsində, cəmiyyətlər və diasporalar əməkdaşlığında qeyd edilən tədbirlər də təsdiqləməkdədir. Kütləvi informasiya vasitələrində də geniş işıqlandırıldığı kimi, 2007-ci il martın 9-da Heydər Əliyev adına Sarayda Dunya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunun acılışı oldu. Forumda 48 olkədən umumilikdə 513 nəfər iştirak edirdi. Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan forumda nitq söylədilər. Forumdakı nitqində prezident İlham Əliyev bəyan edirdi ki, heç bir qüvvə Azərbaycan – Türkiyə əlaqələrini sarsıda bilməz.

2007-ci il mart ayının 9-da Bakı şəhərində keçirilmiş Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumu bütün Türkdilli xalqların həyatında mühüm əhəmiyyətə malik hadisə olmuşdur. Forum Azərbaycan Respublikası Prezidentinin Türk dünyasının birliyinə verdiyi önəmin parlaq təzahürü kimi tarixə düşmüşdür.

Forumda aparılan müzakirələrin nəticəsi olaraq "Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət Strategiyası", "Bakı Bəyannaməsi", "Türkdilli xalqlara Müraciət", "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət nümayəndələrinə Müraciət", "1915-ci il hadisələri ələ əlaqədar erməni iddiaları ilə bağlı qərar qəbul edən ölkələrə etiraz Bəyanatı" qəbul edilmişdir.

Türkiyə ilə Azərbaycan arasında humanitar əlaqələrdən bəhs edərkən elm, təhsil sahəsində həyata keçirilən əlaqələri də qeyd etmək vacibdir. Bu sahədə də əlaqələr dinamik inkişaf tempinə malikdir.

Xüsusilə, 1994-cu ilin 5 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin universitetlərinə tələbə qəbulu haqqında sərəncamı bu sahədə atılmış mühüm addım olmuşdur. Həmin il fevralın 7-də Azərbaycan

Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin ali məktəblərində təhsil almağa yola duşən azərbaycanlı tələbələrin bir qrupu ilə görüşü və fevralın 10-da isə İstanbul ali məktəblərində təhsil alan azərbaycanlı gəncləri qəbul etməsi təhsil sahəsində iki ölkə arasında əlaqələrin inkişafı mənafeyinə xidmət göstərmişdir.

Təhsil sahəsində çoxtərəfli əlaqələr lazımı hüquqi bazaya əsalanır. 1992-ci ildə "Azərbaycan Respublikası ilə Xalq Təhsili Nazirliyi ilə Türkiyə Respublikası Milli Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında" Müqavilə, 1994-cü ildə "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında elm, texnika, sosial, mədəni və iqtisadi sahələrdə əhatəli əməkdaşlıq haqqında" Müqavilə, 1997-ci ildə "Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Milli Təsil Nazirliyi arasında təhsil və elm sahəsində əmaəkdaşlıq haqqında" Protokol imzalanmışdır. Bu sənədlərdə təhsilin müxtəlif sahələri üzrə əməkdaşlıq məsələləri, o cümlədən qarşılıqlı tələbə mübadiləsini ehtiva edən müddəalar əks olunsa da, Azərbaycanın ali məktəblərində verilən ixtisasların Türkiyə tərəfindən tanınması məsələsi həll olunmamışdır. Bu məsələ öz musbət həllini 1998-ci il noyabr ayında Ankarada imzalanmış "Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Milli Təhsil Nazirliyi və Ali Təhsil Şurası rəhbərlyi arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında" Razılıq Protokolu ilə tapmışdır.

Dissertasiyanın ikinci fəsli "**Enerji təhlükəsizliyi sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığı və onun perspektivləri"** adlanır. Fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Azərbaycanın neft diplomatiyası və Türkiyə amili"** adlanır**.** Yarımfəsildə Azərbaycan-Türkiyə münasibətləri neft hasilatı, onun nəqli və istehlakı kontekstində elmi təhlillər müstəvisinə çıxarılmışdır. Azərbaycanın yeni enerji strategiyasının memarı ümummilli lider Heydər Əliyevin otən əsrin 90-cı illərində müəllifi olduğu iki siyasi qərar ölkəmizin neft-qaz siyasətinin formalaşmasınsa həlledici əhəmiyətə malik olmuş, eyni zamanda respublikamızın Avropanın enerji təhlükəsizliyinə töhfə verməyə hazır olduğunu nümayiş etdirmişdir. Daha dəqiq desək, 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsinin 12 şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin yeni neft strategiyasının başlanğıcı olmuşdur.

Bu müqavilədə Türkiyə şirkəti də iştirak edir. O vaxt həmin sənəd imzalanarkən Türkiyə şirkəti bu müqavilənin layihəsinin 1,75 faizinin sahibi olmuşdur. Sonradan Türkiyə prezidenti Süleyman Dəmirəlin və Baş nazir Tansu Çillərin xahişlərini və iki ölkə arasında oaln dostluq, qardaşlıq əlaqələrini nəzərə alaraq, onların daha da inkişaf etdirilməsini istəyərək, respublikamız həmin müqavilədə öz payından 5 faizin əlavə olaraq Türkiyə Cümhuriyyətinə, bu ölkənin şirkətinin sərəncamına keçməsinə razılıq vermişdir. Bu istiqamətdə sənədlərin imzalanması 1995-ci ildə Türkiyənin Baş naziri Tansu Çillərin Bakıya səfəri zamanı baş tutmuşdur. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və «Türkiyə petrolları» şirkətinin prezidenti Sidqi Səncər bu sənədləri imzalamışlar.

Ümumiyyətlə, Azərbaycanın neft-qaz sektoru ilə bağlı 5 müqavilədə Türkiyənin payı vardır: Bakı-Tbilisi-Ceyhan layihəsində - 6,53 faiz; "Azəri"-"Çıraq"-"Günəşli" layihəsində - 6,75 faiz; "Şahdəniz" layihəsində - 9 faiz; "Kürdaşı" layihəsində - 5 faiz; "Araz"-"Alov"-"Şərq" layihəsində - 10 faiz.

Hasil olunan neftin nəqli marşurutlarının seçilməsi böyük geoiqtisadi və geosiyasi əhəmiyyəti olan məsələlər idi. İlk dəfə bu kəmərin əsas ixrac kəməri kimi çəkiləcəyinin tam müəyyənləşməsi 26 aprel 1998-ci ildə Azərbaycan,Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşündə məlum oldu. Bütün bunların nəticəsi olaraq 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən ATƏT-in zirvə toplantısının gedişində İstanbulun Çırağan sarayında xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsi ilə nəql edilməsinə dair saziş imzalandı. Saziş H.Əliyev, E.Şevardnadze və S.Dəmirəl arasında imzalanmışdır.

Boru kəmərinin tikintisi 2003-cü ildə, onun neftlə doldurulması isə 2005-ci il mayın 18-də başlanmışdır. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyunun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salındı və bir ay sonra iyulun 4-də

İtaliyaya çatdı. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. Bu mərasimdə 650-yə yaxın yüksək səviyyəli qonaq iştirak etdi. Başqa sözlə, qonaqların sırasında 32 ölkənin dövlət və hökumət başçısı, xarici işlər və energetika nazirləri var idi. Ən çoxsaylı nümayəndə heyyəti ilə Böyük Britaniyanın BP şirkəti iştirak etmişdir. Belə ki, kəmərin 30,1 % aksiyalarına malik olan bu dövlət 400 nəfərə qədər nümayəndə heyyəti ilə tədbirə qatılmışdı.

**“Azərbaycan-Türkiyə əməkdaşlığında qaz resurslarının rolu”** adlanan ikinci yarımfəsildə isə qaz hasilatı və ondan istifadə sahəsində əməkdaşlığın forma və məzmun məsələləri təhlil olunmuşdur.

Qaz satışı sahəsində Azərbaycan-Türkiyə əməkdşalığı dinamik inkişaf xəttinə malikdir. Bu da təsadüfi deyildir. Xüsusilə nəzərə alsaq ki, Türkiyə enerjiyə olan tələbatının 74%-ni xarici istehsalçılar hesabına ödəyir, bu halda sözügedən sahədə əməkdaşlığın geniş potensialının olması məntiqidir. Onu da qeyd edək ki, son on il ərzində Türkiyə təbii qazın və elektrik enerjisinin istehlak olunmasına görə Çindən sonra 2-ci yerdədir. Təbii qazın Avropaya çatdırılmasında Türkiyə Rusiya, Norveç və Əlcəzairdən sonra 4-cü enerji arteryası olmaq niyyətindədir. 2011-ci il 21 may tarixində qəbul olunmuş Türkiyənin Enerji Strategiyasına əsasaən ölkə enerji resurslarının əsas hasilatçıları və istehlakçıları arasında enerji körpüsü rolunu oynamalıdır.

Dünyanın ən zəngin qaz-kondensat yataqlarından sayılan “Şahdəniz” yatağından hasilat 2006-cı ilin dekabrında başlanmışdır. 2010-ci il aprel ayının 1-dək bu yataqdan 18,8 milyard kubmetr qaz hasil edilmişdir. 2007-ci il fevral ayından etibarən Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağından hasil olunan təbii qaz Bakı-Tbilisi-Ərzurum boru kəməri vasitəsi ilə Gürcüstana nəql olunmağa başlanmışdır. 2007-ci il iyulun 3-də isə “Şahdəniz” qaz-kondensat yatağından hasil edilən təbii qaz Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Cənubi Qafqaz qaz boru kəməri ilə Türkiyə sərhədlərini aşaraq, qardaş ölkənin qaz kəmərləri sisteminə daxil olmuşdur. Cənubi Qafqaz qaz boru kəmərinin ötürücülük qabiliyyəti ildə 20 milyard kubmetr həcmində ölçülür...

«Şahdəniz» yatağının və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin səhmdarları ARDNŞ (10%), Statoyl (25,5%), BP (25,5%), TotalFinaElf (10%), LukAcip (10%), OLİK (10%), TPAO (9%) şirkətləridir. Xatırladaq ki, Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən TANAP layihəsinin beş il ərzində reallaşması nəzərdə tutulmuşdur. Uzunluğu təqribən 2 min kilometr olan boru kəmərinin diametri 56 düyüm və ya 1,4 metr nəzərdə tutulmuşdur. Dörd mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə başa çatacaq, 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 milyard kubmetrə, 2023-cü ildə 23 milyard kubmetrə, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. Onu da deyək ki, ilk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək. TANAP layihəsində ARDNª 80 faiz, Türkiyənin BOTAª və TPAO ºirkətləri isə birlikdə 20 faiz paya malikdir.

Dissertasiyanın “Nəticə” hissəsində tədqiqata yekun vurulmuş, elmi-analitik ümumiləşdirmələr aparılmış və onların əsasında Azərbaycan və Türkiyə arasında strateji əməkdaşlığın inkişafına yönələn təklif və tövsiyələr irəli sürülmüşdür.

**Dissertasiyanın məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Bakı-Tibilisi-Ceyhan neft kəməri və onun geostrateji əhəmiyyəti // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. № 3, 2012, s.173-176
2. Azərbaycan-Türkiyə münasibətlərini şərtləndirən amillər və Heydər Əliyev fenomeni (1991-1994-cü illər) Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. № 1, 2013, s. 223-227
3. Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında Heydər Əliyevin rolu // “Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının banisidir” mövzusunda doktorant və dissertantların elmi konfransının materialları. Bakı, 2013, s.335-339

4. Azerbaijan-Turkey Strategic Partnership Relations on the New Level of Development // Çankırı Karatekin Üniversitesi Uluslararası Avrasya Strateji Dergisi 2(1), 2013, s.115-122

5. Cənubi Qafqazda Türkiyənin geostrateji maraqları və onların reallaşdırılması mexanizmləri // Geostrategiya jur. №3, 2013 s.

6. Azərbaycanın neft diplomatiyası və Türkiyə amili. Geostrategiya. // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. № 3, Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. 2014. s.140-148.

**Г.Ш.АДЫГЕЗАЛОВА**

## Азербайджано-турецкое стратегическое сотрудничество на Южном Кавказе в современный период

### Резюме

Диссертационная работа состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении обоснована научная актуальность и значение рассматриваемой проблемы, проанализирована степень ее научной разработки, определены цели и задачи исследования, показаны его научная новизна, теоретическая и практическая значимость диссертации.

Первая глава «Азербайджано-Турецкое сотрудничество на Южном Кавказе и механизмы его реализации» состоит из трех параграфов. Здесь соответственно, исследованы вопросы военной безопасности и политико-дипломатические аспекты сотрудничества между Азербайджаном и Турцией, позиция официальной Анкары касательно армяно-азербайджанского, нагорно-kарабахского конфликта, а также вопросы, связанные с двусторонним сотрудничеством в торгово-экономической сфере и его перспективами.

В рамках второй главы диссертации - «Азербайджано-Турецкое сотрудничество в сфере энергетической безопасности и его перспективы» и двух параграфов изучено азербайджано-турецкое сотрудничество в контексте добычи, транспортировки и потребления нефтегазовых ресурсов.

В Заключении подытожено исследование, сделаны научно-аналитические обобщения и на их основе выдвинуты рекомендации и предложения, направленные на развитие стратегического сотрудничества между Азербайджаном и Турции.

**G.Sh.ADIGOZALOVA**

## In Contemporary Period in the South Caucasus Azerbaijan-Turkey Strategic Cooperation

### Summary

In the thesis within the context of the South Caucasus, the Azerbaijan-Turkey relations have been studied in various directions.

Research paper consists of introduction, 2 chapters (sub 5), the conclusion and literature review. In the introduction the importance and scientific actuality of the problem was grounded, the purpose and objectives of research were identified, scientific relevance and importance of the problem were set, the analysis a lot of literature on the subject were identified, the dissertation presents a scientific novelty and practical significance.

The first chapter, includes "Azerbaijan-Turkey Cooperation in the South Caucasus and its “realization mechanisms" is derived from three subchapter. In accordance with the political, diplomatic and military aspects of cooperation between Azerbaijan and Turkey, Armenia and Azerbaijan, Ankara's position on the settlement of Nagorno Karabakh conflict, as well as bilateral cooperation in trade-economic and humanitarian spheres and its perspectives on the issues that have been applied.

In the second chapter of, "Azerbaijan-Turkey Cooperation as well as its prospects in the field of energy security," within the two subchapter cooperation between Azerbaijan and Turkey within the framework of the two sub-resources of oil and gas production, transportation and consumption have been studied in the context.

In the conclusion part of the thesis it was showen final patterns of research, research methods and analytical skills were carried out, generalizations were claimed, as well as suggestions and reccomendations towards the issue was put forward in the interest of solving problem.

Format: 60x84 1/16. Tiraj 100. Sifariş № 56

---

DİA-nın mətbəəsi